UOT:94(479.24).

# GƏNCƏ-QAZAX BÖLGƏSİNDƏ MİQRASİYANIN ETNOMƏDƏNİ XÜSUSİYYƏTLƏRƏ TƏSİRİ

***Həsənova Nuranə Rahil qızı***
***Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin dissertantı***
***n.samunida@gmail.com***

**Xülasə:** *Məqalədə son bir neçə on illik ərzində ölkəmizdə sosial, iqtisadi, siyasi vəziyyətlə əlaqədar baş verən hadisələrin fonunda Gəncə-Qazax bölgəsində müşahidə edilən miqrasiyalar və onların etnomədəni xüsusiyyətlərə təsiri işıqlandırılmışdır. Burada tarixi torpaqlarımız olan Qərbi Azərbaycandan deportasiyaya məruz qalmış, I Qarabağ savaşında öz isti ocaqlarından didərgin salınmış, həmçinin Gürcüstanda minillər boyunca yaşamış, öz doğma yurdlarından Orta Asiyaya sürgün edilmiş soydaşlarımızın Gəncə-Qazax bölgəsində miqrasiya proseslərində rolu və etnomədəni xüsusiyyətlərə təsiri keçdiyi yol qısa şəkildə öz əksini tapmışdır.*

**Açar sözlər:** demoqrafiya, miqrasiya, deportasiya, qaçqın, köçkün, etnomədəni xüsusiyyətlər

**Ключевые слова:** демография, миграция, депортация, беженец, перемещенный, етнокультурные характеристики

**Keywords:** demography, migration, deportation, refugee, displaced, etnocultral characteristics

Bütün dövrlərdə miqrasiyalar, onların səbəbləri xalqların, dövlətlərin həyatında, inkişafında yaxud əksinə tənəzzülündə mühüm rol oynamışdır. Miqarasiyalar təbii ki, yalnız insanların yerini dəyişməsi kimi dəyərləndirilə bilməz, eyni zamanda özləri ilə etnomədəni xüsusiyyətlərin daşıyıcısına çevrilirlər. Son dövrlər ölkəmizdə bu istiqamətdə N. Quliyeva, Ə. Məmmədli, E.M.Nəsibov, H.M. Tahirova, Ş.M, Muradov, Ç.Ə Baxış və başqaları tərəfindən elmi araşdırmalar aparılmışdır.

Günümzüdə miqrasiya prosesləri həlli vacib məsələlər içərisində birinci yerdə dayanır. H.M. Tahirovanın qənaətinə görə miqrasiyanın nizamlanması bütün ölkələrdə daxili siyasətin əsas istiqamətlərindən biridir. Müasir dövrdə heç bir ölkə düşünülmüş miqrasiya siyasətini formalaşdırmadan öz milli təhlükəsizliyini, insan və əmək ehtiyatlarının optimal balansını, davamlı sosial-iqtisadi yüksəlişini təmin edə bilməz. (8:4). Bütün bu söylənənlərin fonunda etnomədəni xüsusiyyətlər də dövrün tələblərinə uyğun öz inkişaf yolunu keçir.

Ölkəmizdə miqrasiyanın nizamlanması və etnomədəni xüsusiyyətlərin qorunması baxımından müxtəlif təqdirə layiq addımlar atılmışdır. Bu mənada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş regionların sosial-iqtisdi inkişafı ilə bağlı dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb edir. 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illəri əhatə edən 4 dövlət proqramı qəbul olunmuş və uğurla tətbiq edilməkdədir. (10)

Şübhəsiz ki, Azərbaycandakı iqtisadi yüksəliş əhalinin gəlirlərinin xeyli artmasına, yeni iş yerlərinin yaranmasına və bütövlükdə əhalinin rifah səviyyəsinin yaxşılaşmasına səbəb oldu. Bu da öz növbəsində Azərbaycandan kənara gedənlərin sayının, xüsusilə də gənclərin sayının azalmasına və onların əhalinin tərkibində xüsusi çəkisinin artmasına səbəb olmuşdur.(13) Bütün həyata keçirilmiş tədbirlər ölkədə və tədqiqat aparılan Gəncə-Qazax bölgəsində istər xarici, istər daxili miqrasiyaların aktivliyinə birbaşa öz müsbət təsirlərini göstərmişdir.

Ulu öndər Heydər Əliyevin “Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir” (9) ifadəsi Azərbaycanda etnomədəni müxtəlifliyin dövlət səviyyəsində qorunduğunu açıqça ifadə etmişdir. (6;4) Bu gün ölkəmizdə etnomədəni

xüsusiyətlərin azərbaycançılıq məfkurəsi ətrafında birləşməsinin nəticəsi olaraq 2020-ci ildə xalqımız Zəfər qazanmışdır.

Ölkəmizdə miqrasiya proseslərinin inkişafı dünyada baş verən sosial-iqtisadi-siyasi və mədəni proseslərdən kənarda inkişafını düşünmək mümkünsüzdür. Xalqımızın müstəqillik əldə etməsi və Sovetlər dövründən fərqli olaraq dünyaya qapıların açılması miqrasiyaların inkişafında yeni yönün yaranmasına vasitəçi oldu.

Miqrasiya və onların səbəblərini bir çox tədqiqatçılar bu cür izah etmişdir. “......Yeni ərazilərin mənimsənilməsi, yeni dünyanın kəşf olunması” və s. kimi dəyərləndirilmişdir. (4) “Miqrasiya yaşayış yerinin dəyişdirilməsi ilə əlaqədar əhalinin bir yerdən başqa yerə köçməsi”( 2; 753) “....əhalinin miqrasiyası -əhalinin yaşayış yerini dəyişməsi ilə müşaiyət olunan yerdəyişməsi kimi başa düşülür və bu cəmiyyətin həyatında və fərdi olaraq insanın həyatında baş verən çətin bir proses” kimi dəyərləndirilir.(12)

Gəncə-Qazax bölgəsi ölkənin miqrasiya proseslərinin baş verməsində özünəməxsus rola malikdir. Yeri gəlmişkən, 2020-ci il araşdırmaları zamanı məlum olmuşdur ki, iqtisadi rayonun özündə də daxili miqrasiyanın səviyyəsi yetəri qədər yüksəkdir. Gəncə şəhərində miqrasiya saldosu -6,6% təşkil edir. Ağstafada -22,7%, Daşkəsəndə +10,3%, Goranboyda -19,8%, Göygöldə +27,4%, Qazaxda +13,5%, Samuxda +9,8%, Şəmkirdə +55,0%, Tovuzda -2,3%, Naftalanda +17,6% miqrasiya səviyyəsi müəyyən edilib (5:25)

Bölgə əhalisinin istər xarici istər başqa regionlara miqrasiyasının bir çox səbəbləri vardır. Bunlardan, başlıca səbəblər kimi sosial şəraitin çətinliyi, daha gəlirli iş yerlərinin axtarışını və s. göstərmək olar. Ölkəmizin siyasi, iqtisadi cəhətdən ən çətin dönəmi kimi dəyərləndirilən 1980-ci illərin sonu Qərbi Azərbaycandan (indiki Ermənistan bölgəsindən soydaşlarımızın deportasiyası (7;41) 1990-cı illərdə ölkədəki siyasi qarışıqlıq, iqtisadi çöküş, zavod və fabriklərin fəaliyyətinin dayandırılması, ard-arda Qarabağ bölgəsində rayonlarımızın işğal olunması, əhalinin soyqırıma məruz qalması, öz yaşayış yerlərindən məcburi köçkün və qaçqın vəziyyətinə salınması, h’m,inin tarix boyu etnik yaşayış yerləri Gürcüstanın Məhsəti bölgəsindəki soydaşlarımızın ( Stalinin göstərişi ilə 31 iyul 1944-cü ildə SSRİ Dövlət Müdafiə Komitəsinin "№ 6279" qərarı ilə 14 noyabr 1944-cü ildə kütləvi şəkildə orta Asiyaya deportasiya edilmiş ) (11) geri dönüşü kimi proseslər nəticəsində böyük miqrasiya hadisələri baş verdi. Bütün bunların fonunda ölkədə yaranmış iqtisadi çöküş nəticəsində əhalinin keçmiş postsovet və digər xarici ölkələrə axını başladı.

Sadalananlar əhalinin miqrasiyasına yaxından təsir etməklə yanaşı qeyd olunan dövrdə istər Qərbi Azərbaycandan, Axısxadan, Qarabağ bölgəsindən evindən heç nəyini götürmək imkanı olmayan soydaşlarımızın evlərindəki Azərbaycan xalqına məxsus olan etno mədəni nümunələrin aqibəti hələ də məlum deyil. Xüsusilə son dövr Qarabağda muzeylərdəki sərvətlərin erməni vandalları tərəfindən etnik zəmində yağmalanaraq “erməni mədəni nümunələri” adı altında sərgilənməsi yaxud satılması beynəlxalq səviyyədə etnomədəni irsimizə qarşı ən “böyük cinayət” kimi dəyərləndirilməlidir.

**Miqrasiyaların səbəbləri** mütəxəsislərin fikrincə konkret bir məfhum kimi göstərilə bilməz. Çünki miqrasiyaların səbəbləri müxtəlif zaman kəsiklərində vaxtın zəruri tələblərindən asılı olaraq dəyişkənlik təşkil edə bilir. Miqrasiyalar əsasən müharibə, siyasi qarışıqlıq, sosial-iqtisadi böhran və s. kimi göstəricilər üzrə özünü daha qabarıq göstərmişdir.(4; 9)

Gəncə-Qazax bölgəsində miqrasiyaların əsasında müxtəlif nüanaslar dayanır. Buraya müharibə şəraitini, əmək və daha yaxşı satış bazarlarının əldə edilməsi və s. kimi səbəbləri aid etmək olar.

Nəzərə alsaq ki, Gəncə-Qazax iqtisadi rayonu Bakı və Arandan sonra ən çox qaçqın və məcburi köçkün qəbul etmiş regiondur, təbii olaraq, belə bir vəziyyət iqtisadi rayonun demoqrafik durumuna, ictimai mühitinə sosial-psixoloji təsir göstərir. (5:26) Qaçqın və

Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin (QMKİDK) 2012-ci ilə dair məlumatına görə, bu regionda 131,7 min qaçqın və məcburi köçkün yerləşdirilib.(5: 25)

Bölgədə daxili və xarici miqrasiyanın ən böyük səbəblərindən ən başlıcası kimi sosial şəraitin yaxşılaşdırılması, daha gəlirli bazar və əmək bazarının tapılması məqsədi güdməsi idi. Daxili miqrasiyalar əsasən böyük şəhərlərə müxtəlif məqsədlər üçün yönəlirdi. Xarici miqrasiyalar isə əsasən yeni əmək və mal bazarının təmin edilməsi yönümlü olsa da burada daha yaxşı təhsil almaq məqsədilə, yaxud aldığı yüksək təhsilə uyğun bölgədə işin tapılmaması, nikahlar və s. kimi səbəblər də üstünlük təşkil edirdi. 1990-cı illərə müqayisəyə gəlməz dərəcədə ölkəmizin inkişafı iqtisadi cəhətdən Qafqazın ən güclü dövləti olması miqrasiyalara öz ciddi təsirini göstərdiyi ortadadır. Gəncə, Daşkəsən, Gədəbəy, Göygöl, Naftalan və Şəmkir üçün müvəqqəti mirqasiya daha xarakterikdir. (5:26)

**Adaptasiya**-miqrantın olduğu ölkədə yerli şəraitə uyğunlaşdırılmasıdır. Mütəxəsislərin o fikri ilə razılaşmaq olar ki, “miqrasiya prosesləri dövlətlər arasında yaxınlaşmanı və eləcə də regional siyasi-mədəni bütövləşməni təmin edir. Çünki miqrantlar mədəniyyət və siyasət daşıyıcıları kimi rol oynayırlar”. (4:18)

Adaptasiya proseslərində miqrantlar müxtəlif çətinliklərlə qarşılaşırlar ki, bunlardan ən başlıcası kimi dili və iqlimi göstərmək olar. Adaptasiya yerli dilin öyrənilməsinin təmin edilməsi, yerli adət-ənənələrə və mədəniyyətə uyğunalşdırılma hallarını nəzərdə tutur. (1; Bənd.9.14)

Dövrün tələblərini nəzərə alaraq Gəncə-Qazax bölgəsində baş verən adaptasiya proseslərini, xarici ölkələrdə baş verən ümumi miqrasiya nəticələrilə müqayisə etmək olmaz. Çünki dünyada mövcud miqrasiya proseslərindən ən böyük fərqi onda idi ki, miqrantlar həm daxili həm də xaricdən deportasiya edilmiş, qaçqın, köçkünə çevrilmiş soydaşlarımızdan ibarət olmuşdur. Belə ki, bölgəyə miqrasiya edənlər Qərbi Azərbaycanının bir çox bölgələrindən xüsusilə Zəngəzur və Göyçə mahalından deportasiya olunmuş, Qarabağ bölgəsində işğala məruz qalmış rayonlarımızdan olan qaçqın, köçkünlərimiz həmçinin vaxtilə ölkəmizdən və Gürcüstanda yaşamış və oradan deportasiya olunmuş soydaşlarımız idi. İstənilən halda öz soydaşlarımız olsa da düşdükləri yerdə onların adaptasiya dövrünü keçməsi qaçılmaz idi. Adaptasiya özünü daha çox etnomədəni xüsusiyyətlərdə qabarıq şəkildə biruzə verirdi. Nəzərə alsaq ki, miqrantlar öz soydaşlarımız idi istər daxili miqrasiya (Qərbi Azərbaycandan, Qarabağdan) istər xarici Orta Asiyadan deportasiya olunmuş soydaşlarımızın öz türkçəmizi bilməsi təbii olaraq normal hal idi. Ə.Məmmədli haqlı olaraq qeyd edir ki, “İnsanların ünsiyyəti olmasa, mədəni dəyərlərin, mənəvi yönümlənmələrin, davranış normalarının ötürülməsi mümkün olmaz” .( 3;47)

Orta Asiyadan deportasiya olunmuş soydaşlarımız üçün onların qarşılaşdığı ən böyük problem hamısının “Axısxa türkü” adı ilə adlandırılması idi. Həmçinin sovetlər dövründə uzun illər boyunca sürgün olunmuş soydaşlarımıza qarşı “başqa kökdən” imiş kimi bir davranış şəkli yaradılmış və təbliğ edilmişdir. Məqsəd isə onları “başqa xalq” kimi təqdim edərək Azərbaycana məxsus türk soylu köklərini unutdurmaq idi.

Miqrasiya proseslərində miqrantların ilk qarşılaşdığı başlıca problem təbii ki, getdikləri yerin dilinin mənimsənilməsində olur. Ortaya belə sual çıxır. Eyni kökə, mədəniyyətə, dilə, dinə sahib bir xalq ünsiyyət baxımından hansı çətinliklə qarşılaşa bilərdi? Qərbi Azərbaycandan və Qarabağ bölgəsindən olan qaçqın və köçkünlər ölkənin daxilində müharibə şəraiti ilə əlaqədar olaraq yerlərini dəyişdikləri üçün dil anlaşması ilə bağlı anlaşılmazlıq yox idi. Ilk baxışda “anlaşılmazlıq” Gürcüstandan və digər bölgələrimizdən orta Asiyaya deportasiya olunmuş soydaşlarımız arasında göstərirdi. Belə ki, onlar uzun müddət başqa coğrafiyada yaşamış və istər-istəməz yaşadıqları mühitin mədəniyyətinin təsirinə məruz qalmışdılar. Onlar Azərbaycana dönüşlərini bu cür xatırlayırlar: Eyni dildə danışsaq da ləhçəmiz fəqrli idi.(1) Biz məktəbi qırğız dilində oxuduğumuz üçün öz dilimizdə qırğız ləhçəsində danışırdıq. Ona görə də ilk başlarda biz danışanda anlaşılmırdıq”. (2)

Soydaşlarımız yaşadıqları ata–baba torpaqlardan etnik zəmində sürgün edilsələr də etnomədəni xüsusiyyətlərini qorumağı bacarmışdılar. Lakin təbii olaraq düşdükləri mühitdən də nəisə mənimsəmişlər. Mütəxəsislər haqlı olaraq qeyd etmişdir ki, "dünyada elə etnos yoxdur ki, xüsusən son yüz ildə ənənəvi etnik mədəniyyəti ciddi transformasiyaya uğramamış olsun" (3 ).

**Miqrasiyanın növləri** – aşağıdakı kimi dəyərləndirilir: daxili miqrasiyalar, xarici miqrasiyalar, bir istiqamətli (geri dönməyi nəzərdə tutmayan), daimi yaşayış yerinə emiqrasiya, müvəqqəti (qayıdışı nəzərdə tutulan), uzun müddətli (6 aydan çox müddətə davam edən), mövsümü, köçərilik və ziyarət məqsədli, rəqqasvari (daimi gediş və qayıdış), epizodik, tranzit (sərhədyanı), əks istiqamətli, dönüş məqsədli miqrasiya və s. dir. (8,7) Gəncə-Qazax bölgəsinin yerləşdiyi coğrafi mövqeyi yuxarıda sadalanan miqrasiya növlərinin demək olar ki, əksəriyyətinin reallaşmasına şərait yaratmışdır. Ən çox aktivlik Gürcüstanla həmsərhəd olan Qazax rayonun Qırmızı körpü gömrük məntəqəsində həmçinin Gəncə şəhərində müşahidə edilir. Gürcüstanda yaşayan soydaşlarımızın bir qismi Azərbaycanda iş axtarmaq məcburiyyətindədirlər (8, 39) Buraya eyni zamanda Azərbaycana daha yaxın kəndlərdə öz ana dilində təhsil almaq üçün hər gün gömrükdən keçmək məcburiyyətində qalırlar. Ümumilikdə nəzərdən keçirilərsə miqrasiyalar etnomədəni xüsusiyyətlərin daim hərəkətverici qüvvəsini təşkil edən faktor kimi dəyərləndirmək olar.

***Nəticə***

Aparılan müşahidə və müqayisələr onu deməyə əsas verir ki, müasir şəraitdə Gəncə-Qazax bölgəsi Azərbaycanın etnomədəni xüsusiyyətlərinin formalaşması, inkişafı və qorunmasında mühüm yerlərdən birinə malikdir. Miqrasiyalar isə etnomədəni xüsusiyyətlərin zənginləşməsində, bəzən əksinə zəifləməsi yaxud silinməsinə bir başa təsir gücünə malik əsas səbəblərdəndir. Müsbət haldır ki, Azərbaycanın sosial-iqtisadi baxımdan regionda lider dövlətə çevrilməsi miqrasiyalara eyni zamanda etnomədəni xüsusiyyətlərin qorunmasına öz müsbət təsirini göstərməkdədir.

***Ədəbiyyat***

1. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə. Bənd.9.14. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli Fərmanı
2. A. İ. Quliyev. Hüquq Ensiklopediyası. Bakı. Qanun-2007
3.Ə. Məmmədli "Azərbaycanda müasir etnomədəni proseslərin tədqiqi: nəticələr və prespektivlər" GEO Strategiya.-2012.-№3(09)
4 E.M.Nəsibov. Miqrasiyanın əsasları. Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2014
5. E.Qəribova, V. Rüstəmova Sosial Tədqiqatlar Mərkəzi Azərbaycan barometri. VI buraxılış Fevral 2020 Azərbaycanda daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri analitik hesabat. (sosioloji sorğu və elmi tədqiqatın nəticələri əsasında) Bakı - 2020
6. N.Məmmədli " Multikultralizm Oanaseya yoxsa alternativ" Bakı, 2016
7.Muradov Ş.M., Baxış Ç.Ə. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı, 2013
8. H.M. Tahirova Naxçıvan Muxtar Respublikasında miqrasiyanın demoqrafik proseslərə təsirinin iqtisadi-coğrafi problemləri Bakı-2016
Elektron qaynaqlar:
9.az.m.wikipedia.org
10. https://republic.preslib.az/az_c6.html)
11..https://az.wikipedia.org/wiki/Qaraba%C4%9F_m%C3%BCharib%C9%99sind%C9%99_%C5%9F%C9%99hid_olan_Ax%C4%B1sxa_t%C3%BCrkl%C9%99rinin_siyah%C4%B1s%C4%B1
12.http://abc.informbureau.com/html/ieadaoess ianaeaiess.html
(Экономический словарь. Миграция Населения)

13. (https://www.resursaim.az/category/cemiyyet/news/

İnformatorlar:

1. Məmmədova Gülyetər Şimşək qızı  Ağstafa rayonu Qarayazı qəsəbəsi
2.  İsmayılova Maral Namaz qızı. Samux rayonu Çobanabdallı kəndi

## ДЕЙСТВИЕ МИГРАЦИОННЫХ ПРОЦЕССОВ В ГЯНДЖА-КАЗАХСКОМ РЕГИОНЕ НА ЭТНОКУЛЬТУРНЫЕ ОСОБЕННОСТИ

***Гасанова Нурана Рахиловна***

***Резюме***

В статье освещены наблюдающихся  миграции и их действие на этнокультурные особенности в последные десяти лет  происходящих в стране социальных, экономических и политических положениий в Гянджа- Казахском регионе . А также депортация из своих исторической родины  во время   1-ой Карабахской войны и в течении тысяче лет живших в Грузии людей депортированных в Средней Азии  и их возвращение на родину их роль в миграционных процессах и действие на этнокультурные особенности.

## THE IMPACT OF MIGRATION ON ETHNOCULTURAL CAHARACTERISTICS IN THE GANJA-GAZAKH REGION

***Hasanova Nurana Raxilova***

***Summary***

The article deals with migrations observed in Ganja-Gazakh region and their influence on ethnocultural features in the background of events realated to the social and political situation in our country over the past few decades.

The research briefly studies the role of our compatriots who were deported from our historical land Western Azerbaijan, expelled from their homes in the first Karabakh  War, and exiled from their native lands in Georgia to Central Asia in the migration processes in the Ganja-Gazakh region and their influence on ethnocultral features.

***Rəyçi; t.e.d.,prof. Həsənbala Sadıqov***
***AMEA  Diyarşünaslıq İnstitutunun 06 mart 2023-cü il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olma tarixi 29 mart 2023-cü il***

**UDK 01**

## MƏDƏNİYYƏT VƏ  DÜNYAGÖRÜŞÜ

***F.ü.f.d., dosent Səlimov Mahir Məhəmmədəli oğlu***
***ADPU-nun Ağcabədi filialı***

**Xülasə.** *Məqalədə elmi ədəbiyyatda istifadə edilən “mədəniyyət” və “dünyagörüşü” anlayışlarının adekvatlılığı məsələlərinə toxunulub. Bildirilir ki, bu terminlər müəyyən fərqli anlayışlar kimi ümumi kontekstdə işlədilir. Bildirilir ki, son illərdə işlədilən “mədəniyyət” sözü istər elmi terminologiyada, istərsə də gündəlik danışıq dilimizdə, bir qayda olaraq, hazlrda nail olduğumuz nailiyyətlərin dərin tarixi köklərə malik olduğunun sübutu kimi qəbul edilməsi ilə sıx bağlıdır. Bldirilir ki, ana dilimizdə geniş istifdə olunan “dünyagörüşü” anlayışı müvafiq anlayışı kimi müəyyən bir inkişaf mərhələsi kimi qbul edilir. Məqalə müəllifinin qənatinə görə hər iki anlayış cari inkişafımzın təməl daşlarnı ehtiva edir, onların, “milli-mədəni təfəkkür”, “azərbaycanlının dünyagörüşü” kimi anlaşılmasını təşviq edir.*